BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ

TƏHLİL

# 44 günlük müharibədən sonra Ermənistan-Fransa hərbi əməkdaşlığının inkişafı

Fuad Abdullayev

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az

İYUN 2024

# 44 günlük müharibədən sonra Ermənistan-Fransa hərbi əməkdaşlığının inkişafı

## Giriş

Ermənistan ordusunun 2020-ci ildə 44 günlük müharibədə, daha sonra 2021-ci ilin may və 2022-ci ilin sentyabr aylarında baş verən qısa müddətli döyüş əməliyyatlarında ağır məğlubiyyətlə üzləşməsi rəsmi İrəvanı ölkənin xarici siyasət və təhlükəsizlik kursunu diversifikasiya etməyə sövq edib. Qeyd edək ki, bu proses xüsusilə Ukraynada müharibənin başlamasından sonra Rusiyadan silah və hərbi texnikanın tədarükündə yaşanan problemlər fonunda daha çox müşahidə edilib. Ermənistan hökuməti silah tədarükü sahəsində strateji müttəfiq olan Rusiyadan asılılığı azaltmaq məqsədinə Fransa, eləcə də Hindistan timsalında yeni tərəfdaşlar tapmaqla qismən nail olub. Qeyd edək ki, rəsmi İrəvan həm Fransa, həm də Hindistan ilə hərbi və hərbi-texniki əməkdaşlıq, hərbi konsultasiya, təlim və hərbi təhsil, eləcə də silah tədarükü sahələrini əhatə edən bir sıra razılaşmalar əldə edib.

Son bir il ərzində xüsusilə Fransa ilə olan hərbi əməkdaşlığın daha da intensivləşdiyi müşahidə edilib. Bu müddət ərzində Ermənistan və Fransanın müdafiə nazirləri arasında üç rəsmi görüş baş tutub və hər bir görüşün nəticəsində Ermənistana yeni silah və hərbi texnikanın verilməsinə dair sazişlər imzalanıb.

Qeyd etmək lazımdır ki, Ermənistanın son vaxtlar aldığı silahların təkcə müdafiə xarakterli deyil, eyni zamanda hücum əməliyyatlarında tətbiq edilə bilən silahlar olması Ermənistanda revaşist meyllərin artmasına gətirib çıxara bilər ki, bu da regionda sülhə ciddi təhdiddir. Belə ki, Ermənistan son 30 ildir Azərbaycan torpaqlarını işğal altında saxlayan dövlətdir, ölkənin daxili qanunvericiliyində qonşu ölkələrə ərazi iddiaları əks olunub və ölkə daxilində kifayət qədər revanşist qüvvələr fəaliyyət göstərir. Bu faktlar onu deməyə əsas verir ki, Fransanın bugünkü gündə İrəvanı silahlandırması, hərbi və siyasi dəstək göstərməsi Cənubi Qafqaz regionunda sabitliyin pozulması ilə nəticələnə bilər.

## İkitərəfli hərbi və hərbi-texniki əməkdaşlığın inkişafı

Hadisələrin xronoloqiyasına nəzər yetirdikdə, artıq 2021-ci ilin may ayından etibarən Fransanın Ermənistana hərbi sahədə dəstək göstərməyə başladığı barədə əlamətlərin olduğu müşahidə edilə bilər. Belə ki, Baş nazir Nikol Paşinyanın 31 may-02 iyun 2021-ci il tarixlərində Fransaya işgüzar səfəri zamanı Fransa Prezidenti Emmanuel Makronun bir sıra açıqlamaları təhlükəsizlik sahəsində əməkdaşlığın ilk siqnalı olub. Belə ki, E.Makron birgə mətbuat konfransında Ermənistanın ciddi təhlükəsizlik böhranı ilə üzləşdiyini və 9 noyabr 2020-ci il tarixindən sonra atəşkəsə ümumilikdə

əməl olunsa belə, hələ çox iş görülməli olduğunu bildirib.[1] Bir müddət sonra, 28 iyul 2021-ci il tarixində isə Fransanın Ermənistandakı səfiri Conatan Lakott Ermənistan mətbuatına verdiyi müsahibədə ölkəsinin Ermənistanın müdafiə yardımı ilə bağlı müraciətinə baxacağına dair açıqlama verib.[2] C.Lakottun bu açıqlaması onu deməyə əsas verir ki, məhz bu tarixdən sonra Fransa Ermənistanda təhlükəsizlik məsələlərinin həllində aktiv iştirak etməyə hazır olduğunu diplomatik yolla dilə gətirib.

2022-ci il aprel ayından sonra isə Ermənistan Təhlükəsizlik Şurasının (TŞ) katibi Armen Qriqoryanın Fransa ilə hərbi əməkdaşlıq və təhlükəsizlik sahəsinin inkişafı istiqamətində fəaliyyəti maraq doğurur. Belə ki, A.Qriqoryanın qısa müddət ərzində (8 ay) Fransanın hərbi və hərbi-texniki sahələrinə cavabdeh olan bəzi vəzifəli şəxslərlə intensiv görüşləri baş tutub. O, 02 aprel 2022-ci il tarixində Fransa Silahlı Qüvvələri Nazirliyinin Silahlanma Baş İdarəsinin nümayəndə heyətini qəbul edib. Həmin görüş zamanı, nümayəndə heyətinin xahişi ilə A.Qriqoryan Ermənistan Silahlı Qüvvələrində hərbi sahədə həyata keçirilən islahatları təqdim edib. TŞ katibi islahatların strateji hədəflərindən ətraflı danışıb və belə genişmiqyaslı islahatların məqsədlərindən birinin peşəkar ordunun yaradılması olduğunu vurğulayıb. Həmsöhbətlər ordu islahatları sahəsində mümkün ikitərəfli əməkdaşlığı da müzakirə ediblər. Xüsusilə, hərbi təhsil sahəsində gələcək əməkdaşlığın vacibliyi vurğulanıb. Qeyd edək ki, Fransının nümayəndə heyətinə Rusiya, Belarus, Ukrayna, Orta Asiya, Qafqaz, Türkiyə və İsrail Departamentinin rəisi, polkovnik-leytenant Mari-Aqnes Pikard-Çesel rəhbərlik edib. Heyətin tərkibində departamentin Qafqaz məsələləri üzrə rəhbəri Frans Dominis və Fransanın Ermənistandakı hərbi attaşesi polkovnik-leytenant Frederik Kampos olub.[3]

29 iyun 2022-ci il tarixində A.Qriqoryan Fransa Silahlı Qüvvələri nazirinin diplomatik müşaviri Vinsent Brakonye ilə görüşüb. Görüşdə tərəflər regional təhlükəsizlik və onların mümkün inkişafı məsələlərini, habelə təhlükəsizlik sahəsində ikitərəfli əməkdaşlığın perspektivlərinin müzakirə edilib.[4]

27 oktyabr 2022-ci il tarixində isə A.Qriqoryan, Fransa Silahlı Qüvvələrinin Beynəlxalq Əlaqələr və Strategiya Baş İdarəsinin rəisi Qiyom Olanjyenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüş zamanı Ermənistan tərəfi orduda islahatların

---

[1] Ելիսեյան պալատում տեղի է ունեցել Նիկոլ Փաշինյանի և Էմանուել Մակրոնի հանդիպումը, (baxılıb: 17.05.2024) https://www.primeminister.am/hy/foreign-visits/item/2021/05/31/Nikol-Pashinyan-visit-to-Paris-Brussels/

[2] Ֆրանսիան կդիտարկի պաշտպանության ոլորտում Հայաստանի հայտը, ասում է դեսպան Լաքոտը, (baxılıb: 17.05.2024) https://www.azatutyun.am/a/31373041.html

[3] ԱԽ քարտուղար Արմեն Գրիգորյանը հանդիպել է Ֆրանսիայի Զինված ուժերի նախարարության Սպառազինության գլխավոր վարչության պատվիրակության հետ, (baxılıb: 18.06.2024) https://www.seco.am/information/press_releases/511?lang=hy

[4] ԱԽ քարտուղարը հանդիպել է Վենսան Բրակոնյեի հետ, (baxılıb: 18.06.2024) https://www.seco.am/information/press_releases/536?lang=hy

aparılması prosesi haqqında təqdimat etməklə yanaşı, tərəflər müdafiə sahəsində ikitərəfli əməkdaşlığın inkişaf perspektivlərini də müzakirə ediblər.[5]

28 noyabr 2022-ci il tarixində isə Parisə işgüzar səfəri çərçivəsində A.Qriqoryan Fransa Prezidenti Emmanuel Makron, onun Kontinental Avropa və Türkiyə məsələləri üzrə müşaviri İzabel Dümon, Fransa Müdafiə Nazirliyinin Beynəlxalq əlaqələr və strateji planlaşdırma departamentinin rəis müavini, vitse-admiral Kristof Luka ilə görüşüb. Görüşdə həmsöhbətlər qarşılıqlı maraq doğuran beynəlxalq və regional təhlükəsizlik gündəliyinin bir sıra məsələləri ətrafında fikir mübadiləsi aparıblar.[6]

Proseslərin təhlili onu deməyə əsas verir ki, məhz 2022-ci ilin sentyabr döyüşlərindən sonra Ermənistan və Fransa arasında hərbi əlaqələrin intensivləşməsinin başlanğıç nöqtəsi hesab etmək olar. Belə ki, 27 sentyabr 2022-ci il tarixindən sonra baş verən proseslərə nəzər salsaq, iki ölkənin Müdafiə nazirləri və nümayəndə heyətləri arasında görüşlərin artdığını, hərbi və hərbi-texniki əməkdaşlıq sahəsində bir sıra sazişlərin bağlandığını müşahidə etmək mümkündür.

Qeyd edək ki, 27 sentyabr 2022-ci il tarixində Ermənistan Müdafiə Naziri Suren Papikyanın Fransaya işgüzar səfəri çərçivəsində onun fransalı həmkarı Sebastyen Lekornyu ilə görüşü baş tutub. Görüş nəticəsində, sentyabr döyüşlərindən sonra vəziyyətlə yerindəcə tanış olmaq üçün Fransa Müdafiə Nazirliyinin Ermənistana xüsusi nümayəndə heyəti göndərməsi barədə razılıq əldə olunub.[7]

20 iyun 2023-cü il tarixində Sebastyen Lekornyunun təşəbbüsü ilə Parisdə müdafiə nazirləri arasında növbəti görüş keçirilib.[8] Görüş zamanı, 27 sentyabr 2022-ci il tarixində əldə olunmuş razılaşmaların icrası prosesi, regional təhlükəsizlik məsələləri ətrafında müzakirələr aparılıb.

22 oktyabr 2023-cü il tarixində isə Ermənistanın müdafiə naziri S.Papikyanın Fransaya işgüzar səfəri baş tutub. Görüş zamanı, Fransanın müdafiə naziri S.Lekornyu bildirib ki, Fransa hökuməti yaxın aylarda bir hərbi qulluqçusunu Ermənistana müdafiə məsələləri üzrə müşavir kimi göndərəcək. Görüşün yekununda Fransa-Ermənistan arasında hərbi sahədə əməkdaşlıq haqqında iki ölkə arasında ilk saziş imzalanıb. Bu sazişlə, Ermənistan Fransa ilə hərbi texnikanın tədarükü, fransız hərbi mütəxəssisləri tərəfindən erməni ordu birləşmələri üçün təlimlərin keçirilməsi, Ermənistanın hava hücumundan müdafiə sistemlərinin auditinin aparılması, Ermənistan ordusunun transformasiyasına töhfənin verilməsini razılaşdırıb. Bununla yanaşı, Ermənistan Fransadan “Ground Master 200” (GM-200) tipli radarların, “Mistral-3” zenit-raket

[5] Անխ քարտուղար Արմեն Գրիգորյանը հանդիպել է Ֆրանսիայի Զինված ուժերի նախարարության պատվիրակության հետ, (baxılıb: 18.06.2024) https://www.seco.am/information/press_releases/560?lang=hy
[6] Անխ քարտուղար Արմեն Գրիգորյանը հանդիպել է Իզաբել Դյումոնի, Ֆրեդերիկ Մոնդոլոնիի, Քրիստոֆ Լուկայի և Բրիս Ռոքֆոյի հետ, (baxılıb: 18.06.2024) https://www.seco.am/information/press_releases/586?lang=hy
[7] Տեղի է ունեցել Հայաստանի և Ֆրանսիայի պաշտպանության նախարարների հանդիպումը, (baxılıb: 18.06.2024) https://mil.am/hy/news/11067
[8] Սուրեն Պապիկյանը՝ Փարիզի ավիացիոն ցուցահանդեսի բացմանը, (baxılıb: 18.06.2024) https://armlur.am/1273730/

komplekslərinin, “Safran” şirkətinin istehsalı olan optiki müşahidə və gecəgörmə cihazları, eləcə də “Bastion” zirehli maşınların alınması ilə bağlı niyyət memorandumu imzalayıb.[9]

22 oktyabr 2023-cü il tarixində bağlanmış saziş çərçivəsində, 02 fevral 2024-cü il tarixində Fransa Silahlı Qüvvələrinin Sen-Sir Hərbi Akademiyasının nümayəndə heyəti Ermənistan Müdafiə Nazirliyinin Vazgen Sarqsyan adına Hərbi Akademiyasında olublar. Qeyd edək ki, həmin gün Ermənistan müdafiə nazirinin müavini Arman Sarqsyanın və Fransanın Ermənistandakı səfiri Olivye Dekotininin iştirakı ilə akademiyada müasir avadanlıqla təchiz olunmuş fransız dili kabineti açılıb.[10]

Fevral ayının 22-də isə Fransa nümayəndə heyətinin İrəvana rəsmi səfəri çərçivəsində Ermənistan-Fransa müdafiə nazirləri arasında növbəti görüş baş tutub. Qeyd edək ki, bu səfər Fransa müdafiə naziri vəzifəsində olan şəxsin Ermənistana ilk səfəri olub və onun hava limanında qarşılama mərasimində Ermənistan Müdafiə Nazirinin müavinləri ilə yanaşı, Ermənistan Silahlı Qüvvələrinin Baş qərargah rəisi general-leytenant Edvard Asryan və müavini general-mayor Artur Yeroyan da iştirak edib.[11] Səfər zamanı Fransa nümayəndə heyətinin tərkibində “MBDA”, “Nexter”, “Safran”, “Thales”, “Arquus” və “Lecorni” kimi ölkənin bir sıra aparıcı müdafiə sənayesi müəssisələrinin nümayəndələri də olub. Səfər çərçivəsində, fevral ayının 23-də S.Papikyan həmkarı Sebastyen Lekornyu ilə təkbətək söhbəti edib, ardınca nümayəndə heyətlərinin genişləndirilmiş formatda görüşü keçirilib. Görüş zamanı, hərbi təhsil, döyüş hazırlığı, müxtəlif təlimlər, məsləhət və ekspert dəstəyi məsələlərinə xüsusi diqqət yetirilib. Fransa, Sen-Kir Hərbi Akademiyasında beş erməni kursantının hazırlanması öhdəliyini üzərinə götürüb, eləcə də gizir və müqavilə əsasında xidmət edən əsgər və çavuşların hazırlanmasına öz dəstəyini təklif edib. İki ölkə arasında hərbi-texniki əməkdaşlığın təmin edilməsi istiqamətində qarşıda duran vəzifələr müzakirə edilib. Yekunda Fransanın müdafiə sənayesi təşkilatları ilə bir sıra razılıqlar əldə olunub, Fransanın “PGM” şirkəti ilə isə yüksək dəqiqliyə malik atıcı silahların (snayper) alınması üçün müqavilə imzalanıb.[12]

17 iyun tarixində Ermənistan Müdafiə naziri S.Papikyanın rəhbərlik etdiyi nümayəndə heyəti Fransaya işgüzar səfərə gedib. Qeyd edək ki, Ermənistanın nümayəndə

---

[9] Ֆրանսիան երեք «GM 200» ռադար եւ «Mistral» ՀՕՊ համակարգեր կմատակարարի Հայաստանին, (baxılıb: 20.06.2024) https://hetq.am/hy/article/161416
Հայաստանի կառավարության և Ֆրանսիայի միջև ռազմական համաձայնագրեր, (baxılıb: 20.06.2024) https://hayaliq.com/francearmenia/

[10] Ֆրանսիայի ԶՈՒ Սեն-Սիր ռազմական ակադեմիայի ներկայացուցիչներն այցելել են ՀՀ ՊՆ Վազգեն Սարգսյանի անվան ռազմական ակադեմիա, (baxılıb: 20.06.2024) https://mil.am/hy/news/11969

[11] Հայաստան է ժամանել Ֆրանսիայի զինված ուժերի նախարարի գլխավորած պատվիրակությունը, (baxılıb: 21.06.2024) https://mil.am/hy/news/12011

[12] Հայաստանի և Ֆրանսիայի պաշտպանության նախարարների ասուլիսը, (baxılıb: 21.06.2024) https://hetq.am/hy/article/164514
Армения и Франция подписали соглашения о сотрудничестве в военной сфере, (baxılıb: 21.06.2024) https://rus.err.ee/1609262604/armenija-i-francija-podpisali-soglashenija-o-sotrudnichestve-v-voennoj-sfere
A historic visit by France’s defense minister – and colossal challenges ahead, (baxılıb: 21.06.2024) https://www.civilnet.am/en/news/765820/a-historic-visit-by-frances-defense-minister-and-colossal-challenges-ahead/

heyətinin tərkibi kifayət qədər maraq doğurub. Belə ki, nümayəndə heyətində Ermənistan SQ-nin Raket qoşunları və Artilleriya İdarəsinin rəisi general-mayor Qor Nikoyan, Aviasiya İdarəsinin rəisi polkovnik Hovhannes Vardanyan, eləcə də Ermənistan SQ-nin Hava Hücumundan Müdafiə Qoşunları İdarəsinin rəisi polkovnik Qarik Movseyan da olub.[13] Üç günlük (17-19 iyun) səfər çərçivəsində S.Papikyan, ilk öncə fransalı həmkarı ilə görüşərək, Ermənistan və Fransa arasında müdafiə sahəsində əməkdaşlığın hazırkı gedişatını müzakirə edib. Davamında Ermənistanın müdafiə sahəsində islahatların inkişafı və Fransa ilə hərbi əməkdaşlıq çərçivəsində həyata keçirilən işlərə dair məlumat təqdim edib. Yekunda isə Ermənistanın Müdafiə Nazirliyi ilə Fransanın "KNDS" hərbi-sənaye şirkəti arasında hərbi-texniki əməkdaşlıq haqqında saziş imzalanıb. Saziş çərçivəsində Ermənistan Fransadan 36 ədəd 155 mm-lik "CEASER" özüyeriyən artilleriya qurğusunun alınması ətrafında razılıq əldə edib.[14] Müqaviləyə qurğunun ehtiyat hissələri ilə yanaşı, 155 mm-lik döyüş sursatının tədarükünün də daxil olduğu bildirilib.[15]

17-18 iyun tarixlərində Ermənistan Müdafiə naziri S.Papikyanın rəhbərlik etdiyi nümayəndə heyəti həmçinin Paris şəhərində keçirilən "Eurosatory" beynəlxalq müdafiə sənayesi sərgisində iştirak edib. Sərgi çərçivəsində bəzi hərbi sənaye müəssisələrinin nümayəndələri ilə görüşlər keçirilib. Razılaşmalar əldə olunub, müqavilələr imzalanıb. İyun ayının 19-da isə Ermənistan Müdafiə naziri S.Papikyan Fransa prezidentinin hərbi müşaviri, ordu generalı Fabien Mandon ilə görüşüb. Görüş zamanı Ermənistan və Fransa arasında müdafiə sahəsində əməkdaşlığın gedişi və perspektiv proqramlar ilə bağlı məsələlər müzakirə olunub.[16]

Bununla yanaşı, Paris və İrəvan arasında hərbi əməkdaşlığa hərbi təhsil, təlim və müxtəlif kurslar, eləcə də konsultasiya sahələri də daxil olub. Belə ki, S.Lekornyu Ermənistana rəsmi səfəri zamanı mətbuat konfransında 2024-cü ildən etibarən Fransa-Ermənistan ikitərəfli hərbi əməkdaşlığının dəqiq planlaşdırmaya əsasən qurulduğunu və silahlı qüvvələrin demək olar ki, bütün fəaliyyət sahələrini əhatə etdiyi bildirib. O, əlavə edib ki, artıq Ermənistanda Fransanın daimi hərbi müşaviri fəaliyyət göstərəcək və gələcəkdə Ermənistan ordusunun qərargahlarına qısamüddətli və uzunmüddətli missiyalar üçün təyin edilmiş digər məsləhətçilər də gələcəklər. Məsləhətçilərin hava hücumundan müdafiə sahəsinə təyin ediləcəyi

[13] Սուրեն Պապիկյանը հանդիպել է Ֆրանսիայի զինված ուժերի նախարարի հետ, (baxılıb: 22.06.2024) https://mil.am/hy/news/12240

[14] Армения подписала с Францией контракт на закупку французских САУ CAESAR – Лекорню, (baxılıb: 22.06.2024) https://www.pastinfo.am/ru/news/2024/06/18/mh85ttt6q/1784583
Жан-Кристоф Бюиссон: Франция предоставит Армении 36 гаубиц, (baxılıb: 22.06.2024) https://news.am/rus/news/830271.html

[15] Gain N., Eurosatory 2024 : l'Arménie achète du CAESAR, (baxılıb: 24.06.2024) https://www.forcesoperations.com/eurosatory-2024-larmenie-achete-du-caesar/

[16] Սուրեն Պապիկյանը շարունակել է շրջայցը EUROSATORY միջազգային ցուցահանդեսի տաղավարներում, (baxılıb: 21.06.2024) https://mil.am/hy/news/12244
Սուրեն Պապիկյանը հանդիպել է Ֆրանսիայի նախագահի ռազմական գծով խորհրդականի հետ, (baxılıb: 21.06.2024) https://mil.am/hy/news/12246

vurğulanıb.[17] Qeyd edək ki, 23 oktyabr 2023-cü il tarixində Ermənistanda Fransa hərbi missiyasının açılması barədə razılıq əldə olunub.

Habelə, Ermənistan Silahlı Qüvvələrinin gizir və çavuş heyətlərinin Fransanın Sen-Meksan şəhərində yerləşən Kiçik zabit heyətinin Milli Məktəbində (ENSOA) (6 aylıq kurslar) və Roşfor şəhərində yerləşən Fransanın Hərbi Kosmik Qüvvələrinin kiçik zabit heyətinin hazırlığı məktəbində (EFSOAA) təhsil alacağı bildirilib.[18] Hərbi təlimlərin piyada döyüş, dağlıq ərazidə döyüş və snayper hazırlığı üzrə üç istiqamətdə aparılacağı vurğulanıb. Ermənistan Silahlı Qüvvələrinin şəxsi heyətinin hazırlığı üçün fransız hərbi mütəxəssislərin göndərilməsi də nəzərdə tutulub.[19] Məlum olub ki, S.Lekornyunun İrəvana rəsmi səfəri zamanı, ona Baqramyan hərbi poliqonunda Fransa Silahlı Qüvvələrinin 27-ci dağatıcı briqadasının 17 hərbi qulluqçusunun rəhbərliyində Ermənistan Silahlı Qüvvələrinin xüsusi təyinatlı qüvvələrinin hərbi qulluqçuları tərəfindən təlimlər nümayiş olunub. Qeyd edək ki, 27-ci dağatıcı briqada dağlıq ərzidə və ekstrimal hava şəraitində döyüş əməliyyatlarının keçirilməsi üzrə ixtisaslaşıb.[20]

## Ermənistanın Fransadan aldığı silahların taktiki və texniki xüsusiyyətləri

Yuxarıda qeyd etdiyimiz kimi 22 oktyabr 2023-cü il tarixində Fransa və Ermənistan Müdafiə Nazirləri arasında imzalanmış əməkdaşlıq haqqında sazişə müvafiq olaraq Ermənistana 50 ədəd "Bastion" zirehli döyüş maşını, 3 ədəd "GM-200" radiolokasiya stansiyası və "Mistral-3" zenit-raket komplekslərinin satılması ilə bağlı razılıq əldə edilib. Müqavilənin bağlanmasından təqribən 20 gün sonra isə Ermənistana Fransanın "Arquus" müdafiə sənayesi şirkətinin istehsalı olan "Bastion" zirehli texnikasının ilk partiyası təhvil verilib. Qeyd edək ki, 2023-cü ilin noyabr ayının 11-dən 12-nə keçən gecə, 24 ədəd "Bastion" zirehli avtomobil Ermənistana göndərilmək üçün Gürcüstanın Poti limanına daxil olub və bir müddət sonra onlar Ermənistana göndərilib.[21] "Arquus" müdafiə sənayesi şirkətinin qısa müddət ərzində sifarişin yarısını yerinə yetirməsi maraq doğurub. Lakin aparılmış monitorinq zamanı müəyyən

[17] Франция направит военного советника и будет готовить спецподразделения для ВС Армении, (baxılıb: 25.06.2024) https://am.sputniknews.ru/20231024/frantsiya-napravit-voennogo-sovetnika-i-budet-gotovit-spetspodrazdeleniya-dlya-vs-armenii-67651842.html
Communication défensive, (baxılıb: 23.06.2024) https://courrier.am/fr/communication-defensive
[18] Communication défensive, (baxılıb: 23.06.2024) https://courrier.am/fr/communication-defensive
[19] Lagneau L., La France va envoyer des instructeurs militaires en Arménie https://www.opex360.com/2023/10/23/la-france-va-envoyer-des-instructeurs-militaires-en-armenie/
[20] A historic visit by France's defense minister – and colossal challenges ahead, (baxılıb: 24.06.2024) https://www.civilnet.am/en/news/765820/a-historic-visit-by-frances-defense-minister-and-colossal-challenges-ahead/
27-я горнострелковая бригада, (baxılıb: 24.06.2024) https://www.defense.gouv.fr/terre/nos-unites/nos-brigades/27e-brigade-dinfanterie-montagne/27e-brigade-dinfanterie-montagne
[21] Армения закупает вооружение во Франции, (baxılıb: 21.06.2024) https://anna-news.info/armeniya-zakupaet-vooruzhenie-vo-frantsii/

edilib ki, həmin 24 ədəd texnika "Arquus" şirkətinin 2022-ci ildə Ukraynaya tədarük etməyi öhdəsinə götürdüyü zirehli texnikalardır.[22]

"Bastion" zirehli avtomobillərin taktiki-texniki xüsusiyyətlərinə nəzər yetirsək, qeyd etməliyik ki, həmin texnikalar yüngül zirehli maşınlardır. Onlar şəxsi heyətin daşınması, kəşfiyyat və patrul, obyektlərin mühafizəsi və müşayiəti, eləcə də marşrut təhlükəsizliyinin təmin edilməsi üçün nəzərdə tutulub. Fransa xüsusi təyinatlılarının əsasən Afrika və Yaxın Şərqdə fəaliyyət göstərməsi üçün yaradılıb. Ukrayna üçün nəzərdə tutulan, lakin nəticədə Ermənistana verilən "Bastion APC Extreme Mobility" versiyası 12,5 ton ağırlığa malikdir. 8 xüsusi təyinatlı və 2 ekipaj üzvü olmaqla ümumi olaraq 10 nəfər şəxsi heyəti daşıya bilər. Bu texnikalar təkərli olduqları üçün yüksək manevr qabiliyyətinə və sürətə malik olsalar da, hücum əməliyyatlarında effktivliyi sual altındadır. Belə ki, "Bastion" zirehli avtomobillərin mühafizə qabiliyyəti NATO-nun "STANAG 4569" standartlarının 3-cü səviyyəsinə qədərdir.[23] Qeyd edək ki, "STANAG 4569" standartının 5 səviyyəsi mövcuddur. Bu zirehli avtomobillərin balistik zireh mühafizəsi və balistik şüşə mühafizəsi "STANAG 4569"un 3-cü səviyyəsində olsa da, minadan mühafizə 2a/2b səviyyəsindədir ki, bu 6 kq qədər partladıcıya malik qumbara və minaların partlayışı zaman mühafizə effektivliyini təmin edir.[24] Eyni zamanda, onu da deməyə əsas verir ki, "Bastion" zirehli maşınların bu mühafizə səviyyəsi onları 14,5mm və daha yuxarı çaplı atıcı silahlardan, eyni zamanda tank əleyhinə minalardan (misal TM-62 partlayıcı hissəsi 7,5-8 kq arasındadır) qoruya bilmir. Həmçinin, bu zerhli avtomobillər artilleriya atəşindən və tankəleyhinə raketlərdən kifayət qədər zəif qorunur. Bu da onların döyüş zamanı effektivliyini azaldır. Qeyd etmək lazımdır ki, Ermənistan ordusunun balansında olan "Bastion" zirehli maşınlar 03 iyun 2024-cü il tarixində Ermənistan SQ-nin xüsusi təyinatlı qüvvələrinin təlimlərində müşahidə olunub.[25]

---

[22] La France livre des véhicules de transport de troupes Bastion à l'Arménie, (baxılıb: 22.06.2024) https://www.ouest-france.fr/europe/armenie/des-vehicules-de-transport-de-troupes-bastion-livres-a-larmenie-8121f358-81f9-11ee-a407-397218b61e71
https://x.com/elisabethmalom1/status/1644007622641610758

[23] BASTION APC, (baxılıb: 20.06.2024) https://www.army-guide.com/rus/product5115.html#:~:text=Bastion%20APC%20%D0%B8%D0%BC%D0%B5%D0%B5%D1%82%20%D0%BA%D1%80%D0%B5%D0%B9%D1%81%D0%B5%D1%80%D1%81%D0%BA%D1%83%D1%8E%20%D1%81%D0%BA%D0%BE%D1%80%D0%BE%D1%81%D1%82%D1%8C,%D0%BC%D0%B0%D0%BA%D1%81%D0%B8%D0%BC%D0%B0%D0%BB%D1%8C%D0%BD%D1%8B%D0%B9%20%D0%B7%D0%B0%D0%BF%D0%B0%D1%81%20%D1%85%D0%BE%D0%B4%D0%B0%201000%20%D0%BA%D0%BC%20.&text=%D0%94%D0%BB%D1%8F%20%D0%BF%D0%BE%D0%B2%D1%8B%D1%88%D0%B5%D0%BD%D0%B8%D1%8F%20%D0%B6%D0%B8%D0%B2%D1%83%D1%87%D0%B5%D1%81%D1%82%D0%B8%20%D1%8D%D0%BA%D0%B8%D0%BF%D0%B0%D0%B6%20%D0%B8,%D0%B8%20%D1%86%D0%B5%D0%BD%D1%82%D1%80%D0%B0%D0%BB%D1%8C%D0%BD%D0%BE%D0%B9%20%D1%81%D0%B8%D1%81%D1%82%D0%B5%D0%BC%D0%BE%D0%B9%20%D0%BF%D0%BE%D0%B4%D0%BA%D0%B0%D1%87%D0%BA%D0%B8%20%D1%88%D0%B8%D0%BD

[24] STANAG 4569 различает пять уровней защиты, (baxılıb: 21.06.2024) https://www.aurum-security.de/uk/59-standards/ballistic-standards/ru/295-stanag-4569

[25] Սուրեն Պապիկյանը հետևել է ԶՈՒ հատուկ նշանակության ուժերի զորավարժությանը, (baxılıb: 20.06.2024) https://mil.am/hy/news/12209

Fransadan alınması planlaşdırılan digər silah növü fransız şirkəti “Thales Group” tərəfindən istehsalı edilən GM-200 orta mənzilli 3D radiolokasiya stansiyalarıdır. Taktiki radar olan “GM-200” uzun mənzilli radar sistemlərini tamamlayan və quru qoşunlarının dislokasiya olunmuş birləşmələrinin hava məkanını müşahidəsini aparan çoxməqsədli radardır. Kiçik və manevr qabiliyyətinə malik, xüsusən də I sinifdən (mini) IV sinfə (yüksək hündürlükdə uçan aparatlar) kimi dronlara qədər geniş hədəf spektrini və müasir təhlükə növlərini aşkar etməyə və onları izləməyə qadirdir. Radar müşahidə rejimində 250 km, döyüş rejimində 100 km məsafəyə qədər hədəfləri aşkar edə bilir. Hündürlüyə görə isə hədəfləri aşkaretmə məsafəsi 24 km qədərdir. Qeyd edək ki, “GM-200” radarları qısa mənzilli hava hücumundan müdafiə silahlarının (məsələn, “Mistral”) və orta mənzilli silahların koordinasiyasını təmin edir.[26] Lakin radarın kifayət qədər müasir olmasına baxmayaraq onun Ermənistanda məhdud effektivliyə malik olacağı istisna edilmir. Belə ki, Ermənistanın dağlıq ərazi relyefini nəzərə alsaq qeyd etmək olar ki, alınması planlaşdırılan 3 ədəd radarla Ermənistanın bütün hava məkanının müşahidəsini aparmaq mümkün deyil. Hava məkanının tam nəzarəti üçün ümumi hava hücumundan müdafiə sistemini tamamlaya bilən və nəzarət olunmayan əraziləri də bağlamağa imkan verə bilən digər növ radarlar da olmalıdır. Həmçinin, qeyd edək ki, yeni nəsil olan “GM-200” radarlarına texniki qulluq xeyli xərc və təmir üçün lazımi şərait də tələb olunur ki, bu da öz növbəsində əlavə xərc tələb edir.

Fransızların Ermənistana verəcəyi daha bir silah “Mistral” qısa mənzilli zenit-raket sistemləridir ki, bu silahların bir neçə versiyası mövcuddur. Lakin Ermənistana bu silahların son versiyası olan “Mistral-3” zenit-raket komplekslərinin (ZRK) verilməsi nəzərdə tutulub.[27] Ümumiyyətlə “Mistral” ZRK-ların raketləri Fransanın “MBDA” şirkəti tərəfindən istehsal olunur. Həmin ZRK-lar helikopter, PUA, sürətli zərbə katerləri, döyüş təyyarələri, qırıcılar və bombardmançıların məhv edilməsi üçün təyin olunub. Qeyd etmək lazımdır ki, bu komplekslərin raketlərinin müvəffəqiyyət dərəcəsi 95%-dən çoxdur. Raketin surəti 3348 km/s-dır. Hədəfi məhvetmə radiusu uzaqlığa görə 8 min metrə qədər, hündürlüyə görə isə 6 min metrə qədərdir. Habelə, “Mistral-3” ZRK-ların raketi infraqırmızı başlıq ilə təchiz edilib, minimal termal xüsusiyyətlərə malik hədəfləri belə vurmağa qadirdir və optik-elektron maneələrə qarşı dayanıqlıdır. Komplekslər nəqliyyat vasitələrinə, gəmilərə, helikopterlərə quraşdırılaraq, yaxud insan tərəfindən daşınan hava hücumundan müdafiə sistemi kimi istifadə edilə bilər. Qeyd etmək lazımdır ki, “Mistral-3” ZRK-ların nəqliyyat

[26] Многофункциональный радар Ground Master 200 одновременно обнаруживает и сопровождает цели на малой и большой высоте во всех средах, (baxılıb: 23.06.2024) https://building-tech.org/%D0%92%D0%BE%D0%BE%D1%80%D1%83%D0%B6%D0%B5%D0%BD%D0%B8%D0%B5/mnogofunktsyonalniy-radar-ground-master-200-odnovremenno-obnaruzhyvaet-y-soprovozhdaet-tsely-na-maloy-y-bolshoy-visote-vo-vsekh-sredakh
Шварц К., Эксперт рассказал, как радары GM 200 усилят ПВО Украины, (baxılıb: 23.06.2024) https://www.unian.net/war/radary-gm-200-kak-ground-master-200-usilyat-pvo-ukrainy-ekspert-12129528.html

[27] Франко-Армянские отношения, которые недавно развиваются в оборонной сфере, (baxılıb: 22.06.2024) https://www.senat.fr/rap/l23-534/l23-5342.html#toc17

vasitələri üzərində quraşdırılmış axırıncı versiyasında 20 mm-lik top mövcuddur.[28] Bu da öz növbəsində ZRK-nın kiçik ölçülü dronlara qarşı mübarizə qabiliyyətinin effektivliyini kifayət qədər artırmışdır.

Qeyd etmək lazımdır ki, istənilən ölkənin hava hücumundan müdafiə sistemi qarışıq və bir-birini tamalayan kompleks bir sistemdir və bir çox mərhələdən ibarətdir. “Mistral-3” ZRK-lar effektiv silah sayılsa da onların kompleks şəkildə istifadəsi zəruridir, əks halda onların effektivliyi aşağı düşə bilər. Müsbət cəhəti ondan ibartədir ki, passiv rejimdə işləyir və bu da onun aşkar edilib məhv edilməsində çətinlik yarada bilər.

Aparılmış monitorinq zamanı, bu da müəyyən edilmişdir ki, 23 fevral 2024-cü il tarixində Fransanın Müdafiə naziri S.Lekornyunun Ermənistana səfəri zamanı verdiyi bəzi açıqlamalar mətbuatda öz əksini tapmayıb. Həmin açıqlamalar zamanı, o qeyd edib ki, əməkdaşlığın prioriteti hava hücumundan müdafiə sahəsidir və üç “GM-200” radarından biri tezliklə təhvil verilməlidir. S.Lekornyu onu da əlavə edib ki, “Mistral” ZRK-larla bağlı məsələ hələ də danışıqlar mərhələsindədir. O əmin edib ki, yaxın gələcəkdə qısa, orta və uzun (“Mica VL” və “SAMP/T”) mənzilli hava hücumundan müdafiə sistemləri, artilleriya və dron əleyhinə sistemlərə aid digər seqmentlər də müzakirə mövzusu olacaq.[29]

Qeyd edək ki, bu açıqlamalardan sonra 17 iyun 2024-cü il tarixində Ermənistan Fransa-Almaniya müdafiə konserni olan “KNDS” ilə müqavilə imzalayıb və nəticədə Ermənistan 36 ədəd 155 mm-lik “CAESAR” özüyeriyən artilleriya qurğusu sifariş verib.[30] Alınan artilleriya qurğularının 15 ay ərzində təhvil veriləcəyi bildirilib.[31] Qeyd edək ki, bu artilleriya qurğularının Ermənistana verilməsi məsələsi Fransa parlamentinin 23 noyabr 2023-cü il tarixində Fransa Silahlı Qüvvələrinin 2024-cü ildə təchiz edilməsinə dair büdcə layihəsi zamanı müzakirə olunub. Müzakirə zamanı, Ermənistana “CAESAR” özüyeriyən artilleriya qurğularının tez bir vaxtda verilməsinin zəruriliyi vurğulanıb.[32]

Müqavilədə göstərilən qurğuların sayını nəzərə alsaq ehtimal etmək olar ki, yeni artilleriya bölmələri 4 ədəd qurğudan təşkil olunsa (6 və 8 ədədli artilleriya bölmələri də ola bilər, lakin Ermənistan ordusunda əsasən 4 qurğudan ibarət olur), Ermənistan “CAESAR” özüyeriyən artilleriya qurğuları ilə təchiz edilmiş 3 divizion (6 və ya 8 olacağı təqdirdə 2 divizion) yarada biləcək ki, bu da 1 artilleriya alayına bərabərdir. Bu isə bir

---

[28] Винник Е., Что такое ЗРК Мистраль 3 и зачем он Армении? (baxılıb: 22.06.2024) https://vestikavkaza.ru/articles/cto-takoe-rakety-mistral-3i-zacem-on-armenii.html
France Launches Joint Acquisition of Mistral 3 Missiles with Belgium, Cyprus, Estonia and Hungary, (baxılıb: 23.06.2024) https://militaryleak.com/2023/06/22/france-launches-joint-acquisition-of-mistral-3-missiles-with-belgium-cyprus-estonia-and-hungary/

[29] Communication defensive, (baxılıb: 23.06.2024) https://courrier.am/fr/communication-defensive

[30] Между минобороны Армении и компанией KNDS подписан договор о военно-техническом сотрудничестве, (baxılıb: 23.06.2024) https://armenpress.am/ru/article/1193891

[31] https://x.com/jchribuisson/status/1803380872923488298

[32] https://www.senat.fr/rap/a23-130-8/a23-130-83.html

ordu korpusunu dəstəkləməyə yetərli deyil. Lakin istisna edilmir ki, Hindistandan alınan 155 mm-lik artilleriya qurğularının əlavə edilməsi ilə bir ordu korpusuna atəş dəstəyi göstərə biləcək artilleriya briqadası yaradıla bilər.

"KNDS" müdafiə konserninə daxil olan və Fransanın "Nexter Systems" şirkəti tərəfindən istehsal edilən "CAESAR" özüyeriyən artilleriya qurğuları sursatın növündən asılı olaraq 41 km-dən 54 km-ə qədər məsafəyə atəş aça bilir. Düzünə tuşlama ilə isə 2 km məsafədəki hədəfləri vura bilir. Bu artilleriya qurğusu "SIGMA-30" atəşi idarəetmə sistemi ilə təchiz edilib. Atəş surəti dəqiqədə 6 mərmidir. Ekipajı 5 isə nəfərdir.[33]

Qeyd edək ki, "CAESAR" özüyeriyən artilleriya qurğuları Ukraynada döyüş keçmiş sistemlərdir. Mövcud məlumatların təhlili onu deməyə əsas verir ki, bu artilleriya qurğuları sürətli və dəqiq vurmaq qabiliyyətinə malikdir və döyüşlərdə kiyafət qədər effektivdir. Lakin Ukraynada gedən döyüşlərdə bu artilleriya qurğularının bəzi zəif cəhətlərinin də olduğu müəyyən edilib. Bu barədə Ukrayna Silahlı Qüvvlərinin 56-cı motoatıcı briqadasının komandiri Yan Yatsıçin Fransanın Le Monde nəşrinə verdiyi müsahibə zamanı bildirib. O qeyd edib ki, "CAESAR" özüyeriyən artilleriya qurğuları intensiv döyüşlər aparmağa qadir deyil, qurğunun lüləsinin müəyyən aşınma həddi var   və bu, çox tez baş verir ki, nəticədə yüksək intensivli olan döyüşlər zamanı lülə tamamilə sıradan çıxa bilər. Bununla yanaşı, qurğunun döyüş dəstində 18 mərmi var, bu da çox azdır və mütəmadi doldurulmasını tələb edir. Qurğu çox ağırdır və pis hava şəraitində ərazidə hərəkət qabiliyyəti aşağıdır. Daha bir mənfi cəhəti isə qabaritlərinin iri olmasıdır. Belə ki, döyüş zamanı əks-batareya mübarizə vasitələri tərəfindən tez aşkar edilmə ehtimalı yüksəkdir. Ən çox rastlanan problem isə, lülənin toza qarşı həssas olmasıdır ki, onu daim təmiz saxlamaq və tez-tez təmizləmək lazımdır.[34] Qeyd etmək lazımdır ki, bütün bu amillər real döyüş əməliyyatları zamanı çətinlik yaradır və oxşar problemlərin ermənilərin də başına gələ biləcəyi istisna edilmir.

Bununla yanaşı, məlum olub ki, Fransa parlamentində 23 noyabr 2023-cü il tarixində keçirilən müzakirələr zamanı məruzəçilər Fransa Silahlı Qüvvələrinin sursat təminatı ilə bağlı problemlərinin olduğunu vurğulayıblar. Belə ki, yüksək intensivli döyüş əməliyyatlarının tələbləri nəzərə alınmaqla sursat təminatı qeyri-kafi olaraq qiymətləndirilib. Məlum olub ki, 2024-cü ildə Fransa ordusu 20 min ədəd 155 mm-lik mərmi mərmi ilə təchiz edilməlidir və bu Ukrayna ordusunun 4 günlük mərmi sərfiyyatına bərabərdir. Məruzəçilər onu da vurğulayıb ki, hökumətin açıqlamalarına

[33] САУ «Цезарь»: какие достоинства и недостатки есть у французской артиллерийской системы, (baxılıb: 24.06.2024) https://novate.ru/blogs/200822/63920/

[34] Офицер ВСУ пожаловался западному журналисту на оружие, (baxılıb: 24.06.2024) https://lenta.ru/news/2023/12/17/ofitser-vsu-pozhalovalsya-zapadnomu-zhurnalistu-na-oruzhie/
Матвиенко А., Не приспособлены к реалиям войны": военный назвал недостатки французских САУ Caesar, (baxılıb: 24.06.2024) https://focus.ua/voennye-novosti/613497-ne-prisposobleny-k-realiyam-voyny-voennyy-nazval-nedostatki-francuzskih-sau-caesar
ВСУ оказались разочарованы эксплуатацией французских САУ «Цезарь», (baxılıb: 24.06.20224) https://topcor.ru/46646-vsu-okazalis-razocharovany-jekspluataciej-francuzskih-sau-cezar.html

baxmayaraq, növbəti illərdə artilleriya sursatları üzrə təminatın həcmi əvvəlki illərdə müşahidə olunan orta göstəricilər səviyyəsində qalacaq.[35]

Fransada 155 mm-lik sursat probleminin yaşanması əlbəttə ki, Ermənistana təsirsiz ötüşməyəcək. Belə ki, "CAESAR" özüyeriyən artilleriya qurğularında məhz Fransa istehsalı döyüş sursatlarının istifadəsi daha məqsədəuyğun hesab edilir. Başqa sözlə, Şərqi Avropa ölkələrində istehsal olunan eyni çaplı mərmilər, silahın daha tez sıradan çıxmasına gətirib çıxara biləcəyindən dolayı digər ölkə istehsalı mərmilərin "CAESAR" özüyeriyən artilleriya qurğularında istifadə olunması çətin görünür.

Qeyd edək ki, yuxarıda qeyd edilən silah növləri ilə yanaşı, Ermənistan Fransanın "Safran" şirkətinin istehsalı olan optiki müşahidə və gecəgörmə cihazlarını alıb və "PGM" şirkətinin istehsalı olan snayper silahlarının alınmasısını razılaşdırıb. Müşahidə və gecəgörmə cihazılarının 22 fevral 2024-cü il tarixində Fransanın Müdafiə naziri S.Lekornyunun İrəvana səfəri zamanı Ermənistana təhvil verildiyi, onların nümayəndə heyətinin gəldiyi təyyarədə olduğu bildirilib.[36]

**Nəticə:**

Son iki ildə ikitərəfli hərbi əməkdaşlığın intensiviliyi onu deməyə əsas verir ki, Fransa bundan sonra da aktiv şəkildə Ermənistanı silahlandırmağa davam edəcək və yeni növ silahlarla təmin edəcək. Həmçinin, Fransa ordusunun hərbi qulluqçularının (müşavir, məsləhətçi, təlimatçı və s. qismində) iki ölkə arasında hərbi və hərbi-texniki əməkdaşlıq kontekstində Ermənistan ordusuna daha çox nüfuz edəcək.

Ermənistanın müdafiə xərclərini son üç ildə 795 milyon ABŞ dollarından, 1,4 milyard ABŞ dollarına qədər artırması isə İrəvanın silahlanma tendensiyasının davam edəcəyini göstərir. Bu da öz növbəsində Ermənistanın Azərbaycanla normallaşma prosesinə qeyri-səmimi yanaşmasına dəlalət edir. Ümumiyyətlə, Ermənistanın xüsusilə hücum xarakterli silahlarla silahlandırılması onun daxilindəki Azərbaycana qarşı revanşist hisslər bəsləyən qüvvələri cəsarətləndirəcək ki, bu da regionda yaxın gələcəkdə kövrək olan sabitliyin pozulması ilə nəticələnə bilər.

Qeyd edək ki, 44 günlük mühirəbədən sonra hərbi potensialının təxminən 60-70%-i məhv edilmiş Ermənistan yaxın 2-3 il ərzində Fransa və Hindistandan sifariş verdiyi artilleriya sistemlərini vaxtında ala bilsə, hansı ki, bu böyük sual altındadır, ordunun bu istiqamət üzrə itkilərini bərpa etmiş sayılacaq. Hava hücumundan müdafiə sistemlərinin alınması və ümumiyyətlə hava məkanın bağlanması isə daha uzun çəkə

---

[35] Два приоритета: увеличение запасов и обеспечение пропускной пропускности, (baxılıb: 23.06.2024) https://www.senat.fr/rap/a23-130-8/a23-130-82.html

[36] Communication défensive, (baxılıb: 23.06.2024) https://courrier.am/fr/communication-defensive
Arménie: un contrat signé avec la France pour l'acquisition de fusils, (baxılıb: 24.06.2024) https://www.lefigaro.fr/flash-actu/armenie-un-contrat-signe-avec-la-france-pour-l-acquisition-de-fusils-20240223

bilər. Bütün bunlara əlavə olaraq şəxsi heyətin hazırlanması, onların yeni silahlara və döyüş elementlərinə yiyələnməsi, təcrübə toplaması da müəyyən vaxt tələb edir. Eyni zamanda, alınan silahların NATO standartlarına uyğun olması, yaranacaq hər hansı nasazlıq zamanı bu silahlara texniki qulluğun göstərilməsi və onların təmiri üçün Ermənistanda hazırda zəruri bazanın olmaması gələcəkdə ciddi problemlərə gətirib çıxaracaq. NATO standartlarına cavab verən sursatların tədarükü və ya Ermənistanda istehsalı da sual doğuran digər məsələdir.

Nəticə etibarıyla, belə bir qənaətə gəlmək olar ki, yaxın 3-4 il ərzində Ermənistanın regionda güc balansını bərpa etməyə və ya onu öz xeyrinə dəyişməyə imkanları yoxdur, daha uzun perspektivdə isə bu, məhdud görünür.

**Müəllif: Fuad Abdullayev, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin məsləhətçisi**